# Yeni geosiyasi düzənin rəsmi bəyanı

## Azərbaycan, Türkiyə və Pakistan regionda müqayisəyəgəlməz güc mərkəzidir

Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin 107-ci ildönümündə Laçın şəhərində keçirilən Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Zirvə görüşü yalnız diplomatik tədbir deyil, həm də regionda formalaşan yeni geosiyasi düzənin rəsmi bəyanıdır. Prezident İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və Baş nazir Məhəmməd Şahbaz Şərifin iştirakı ilə baş tutan bu görüş üç strateji tərəfdaş ölkə arasında əməkdaşlığın yeni mərhələyə keçdiyini nümayiş etdirdi.



Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Zirvə görüşünün məhz Laçında - işğaldan azad olunmuş ərazidə keçirilməsi həm rəmzi, həm də məqsədli xarakter daşıyır. Bu seçim Azərbaycanın ərazi bütövlüyünün həm faktiki, həm də hüquqi baxımdan tanındığının, eləcə də ölkənin yeni postmünaqişə mərhələsində beynəlxalq aləmdə qəbul olunmasının aydın göstəricisidir. Bu toplantı ilə Azərbaycan dünya ictimaiyyətinə açıq mesaj verdi: müharibədən sonra formalaşan yeni reallıqlar dəyişməz qalacaq və azad olunmuş ərazilər artıq sabitlik, inkişaf və beynəlxalq əməkdaşlıq mərkəzi kimi qəbul olunacaq. Laçın isə təkcə coğrafi deyil, həm də strateji-siyasi baxımdan önəmli bir məkana çevrilməkdədir.

Deputat qeyd edib ki, görüşdə müdafiə sənayesi sahələrində əməkdaşlıq məsələlərinə də toxunulub. 2021-ci ildə üç ölkənin xüsusi təyinatlılarının iştirakı ilə "Üç qardaş" şüarı altında keçirilən təlimlərin əhəmiyyəti vurğulanıb və üç ölkənin silahlı qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklif edilib və bu, məmnunluqla qəbul olunub: "Müdafiə sənayesi sahəsində üç ölkənin birgə istehsalının təşkil edilməsi məsələsi vurğulanıb. Azərbaycan, Türkiyə və Pakistan arasında mövcud olan əməkdaşlıq artıq dostluq münasibətlərindən əlavə, qarşılıqlı strateji maraqlara əsaslanan sistemli bir ittifaq modelinə də çevrilməkdədir. Bu üçtərəfli format tədricən türk-islam dünyasında yeni bir inteqrasiya modelinin konturlarını yaradır və Qərblə Şərq blokları arasında alternativ güc mərkəzi kimi irəli çıxır. Eyni zamanda bu görüş Cənubi Qafqazda "3+3" formatına alternativ ola biləcək daha konkret və təsirli üçtərəfli əməkdaşlıq modelinin mümkünlüyünü ortaya qoyur".

K.Bayramov əlavə edib ki, Zirvə görüşü eyni zamanda Ermənistan və onun bölgədəki himayədarları üçün ciddi mesaj xarakteri daşıyır. Azərbaycanın müharibədən sonrakı dövrdə təşəbbüsü öz əlinə alması, ərazi bütövlüyünü faktiki olaraq tam bərpa etməsi və bu əsasda regional əməkdaşlıq platforması formalaşdırması Ermənistana sülhdən başqa yol olmadığını açıq şəkildə göstərir.

O, qeyd edib ki, bugünkü çoxqütblü dünyada, güc mərkəzlərinin yenidən formalaşdığı bir zamanda Azərbaycan-Türkiyə-Pakistan arasında qurulan əməkdaşlıq modeli ortaq mədəni dəyərlər, suveren maraqlar və qarşılıqlı inam əsasında yüksələn yeni tərəfdaşlıq nümunəsini ortaya qoyur. Bu tədbir təkcə siyasi görüş kimi deyil, həm də yeni mərhələnin və dəyişən geosiyasi düzənin simvolu kimi tarixə düşür. "Azərbaycan Cənubi Qafqazın yalnız bir ölkəsi deyil, həm də proseslərə istiqamət verən əsas gücdür. Bu liderliyin konturları artıq Bakı, Ankara və İslamabad üçbucağında da müəyyənləşir. Göründüyü kimi, qardaş ölkələrin liderlərinin Azərbaycana səfəri təkcə əlaqələrin möhkəmliyini nümayiş etdirmədi, həmçinin daha böyük uğurların təməlini qoydu. Zirvə görüşündə səsləndirilən fikirlər bir daha göstərdi ki, Azərbaycan, Türkiyə və Pakistan regionda müqayisəyəgəlməz güc mərkəzidir və hər hansı qlobal təşəbbüs bu üçlük nəzərə alınmadan həyata keçirilə bilməz. Sarsılmaz qardaşlıq bağları və liderlərin nümayiş etdirdiyi yüksəksəviyyəli diplomatik çeviklik yaxın gələcəkdə bu birliyin milli maraqlara uyğun şəkildə tarix yazacağına ciddi inam formalaşdırır", - deyə o bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.-30 may (№111).- S.14.